Salam, dostum.

Adım Gohardır. Mənim 18 yaşım var, Ermənistanda yaşayıram. Sənə fəxrlə əl uzadıb sülhün bərqərar edilməsi barədə danışmaq istəyirəm. Biz hər ikimiz də çətin şəraitdə yaşayırıq: hər gün cəbhədən acılı xəbərlər eşidirik. Əlbəttə heç kim bunu istəmir, hamımız insanıq və sülh şəraitində yaşamaq istəyitik.

Biz də sülhə nail olmaq istəyirik, bəs sülhə aparan yollar hansılardır? Biləndə ki, bizimlə həmyaş olan gənclər sülhü qorumaq istəyirlər, biz buna biganə qala bilmərik. Lakin bu yetərli deyil.

Sülh, təbii ki, dialoq vasitəsi ilə olmalıdır. Mən əminəm ki, sən də mənim kimi müharibə istəmirsən, əziz dost. Mənim sülhsevər dostum, gəl dünyaya sülh səpələyək və bizim ölkələrimizdə rəngarəng sülh təmin edək.

Bilirsən, mən hətta düşünmüşəm ki, sülh bərqərar olunmasından sonra nə olacaq:

*Mavi səma,*

*Sevinc və səadət,*

*Gözyaşısız gözlər,*

*Həyəcansız qəlblər, xoşbəxt uşaqlıq*

*Sərhədlərdə əmin–amanlıq, əsgərlərin ürəklərində həyəcan yoxdur Və nəhayət yaradıcılıq və çiçəklənmə.*

Biz – mən və sən müharibədən irəli gələn fəlakətləri başa düşürük, elə deyil mi? Şikəst olmuş talelər, itirilmiş həyatlar, məgər bizə bu lazımdır?

Onda, əzizim, gəl bir anlıq hər şeyi bir kənara qoyaq, neçə ildir bizi öz içinə sıxıb möhkəm–möhkəm saxlayan bu həlqədən çıxaq. Gəl əl–ələ verək, içimizdəki o stereotipləri guya ki, biz adi insanlar kimi ünsiyyət qura bilmirmişik– yox edək.

Gəl dost olaq. Ölkələrimizi dəyişikliyə aparacaq güc biz olaq. Əzizim, sabahımız və gələcəyimiz bizik. Gəl sevgi ilə yan–yana yaşayaq. Gəl motivasiyaya səbəb olan addım ataq, nəinki addım atmaq üçün motivasiya axtaraq.

Dostum, bil ki, ən yaxşı yaradıcılıq Yer üzündə sakit və sülh şəraitində yaşamaqdır.

Gəl həmişəlik yadımızda saxlayaq ki, səhv düzəldilməyənəcən səhv qalır. Gəl səhvlərimiz üzərindən dərs almağa çalışaq. Bir–birimizə güzəştə gedək. Bir–birimizi sevək, çünki dünyada insani sevgidən daha gözəl duyğu yoxdur.

Mən də sənin kimi öz vətənimi sevirəm. Mən səni burada görmək istəyirəm. Adımı təkrar oxu, Mən Gohar, gəl və tap məni.

Sənin Ermənistanlı dostun, ya da yaxın tanışın (necə məqbul görərsən) Gohar